# Gənc alim beynəlxalq reytinqdə üçüncü yerə layiq görülüb

**Azərbaycanlı gənc alim Sona Quliyeva aerokosmik tədqiqatlar üzrə nüfuzlu beynəlxalq "Top 100 Women in Aerospace & Aviation 2025" reytinqində üçüncü yerə layiq görülüb. O, dünya üzrə 200-dən artıq namizəd arasından seçilərək aerokosmik və aviasiya sahəsində fəaliyyət göstərən tanınmış qadın mütəxəssislər sırasında yer alıb.**




Sona Quliyeva beynəlxalq uğuru ilə bağlı AZƏRTAC-a bildirib: "Mənim üçün bu tanınma artıq nominasiyada iştirak və finalçıların siyahısına düşməklə başlamışdı. Açığı, üçüncü yerə layiq görüləcəyimi gözləmirdim. Bu, dürüst və ardıcıl əməyin görünən, seçilmiş yolun və görülən işin mənalı olduğunu bir daha təsdiqlədi. Mən bu nəticəni dərin minnətdarlıq və məsuliyyət hissi ilə qəbul edirəm", - deyə o qeyd edib.

Gənc alim reytinq nəticələrini bayramın ilk günü səhər saatlarında ailəsi ilə videobağlantı zamanı öyrəndiyini və üçüncü yerin onun üçün gözlənilməz olduğunu bildirib. "Bu sahədə fəaliyyətimə verilən yüksək qiymət təkcə mənə deyil, eyni zamanda mənə dəstək göstərən və yoluma davam etməyin vacibliyini xatırladan hər kəsə aiddir", - deyə Sona Quliyeva vurğulayıb.

Azərbaycan. - 2026.-7 yanvar (№2).- S.8.